

# ALMAZ BELƏ YARANDI

## Hacı Qasim Süleymani

# ALMAZ BELƏ YARANDI

Şəhid Hacı Qasim Süleymaninin həyatı haqqında seçmə tərcümələr və xatirələr

Qasim Süleymani məktəbinin yetirmələri

**Kitabın adı............Almaz belə yarandı**

**Müəllif....................Orxan Məmmədov**

**Rəssam.................................Cəlil Alışov**

**Dizayner........................Həsən Hürrəmi**

**2023**

بسم الله الرحمن الرحيم

***«Möminlərin arasında elələri vardır ki, Allaha verdikləri sözə sadiq qalarlar. Onlardan kimisi şəhid olmuş, kimisi də (şəhidliyi) gözləyir. Onlar verdikləri sözü qətiyyən dəyişdirmədilər»***

**(Əhzab surəsi- 23)**

## Almaz necə yarandı?

Almaz nadir və olduqca qiymətli bir daşdır. Bu daş Şərqdə qüdrət, şücaət, müdriklik rəmzi sayılıb. Ona görə çox vaxt qüdrət sahibləri taclarına almaz daşı taxırdılar.

Almaz çox möhkəm daşdır, amma eyni zamanda da çox kövrəkdir.

Almaz cızıq götürmür, amma almazın köməyi ilə möhkəm cisimləri kəsirlər, yarırlar.

Hacı Qasim Süleymani da almaz daşı kimi nadir idi, həm də şücaətli və müdrik idi. O, vilayət tacının bəzəyi idi.

Hacı Qasim Süleymaninin qəlbi almaz kimi idi. Döyüşlərdə iradəsi çox möhkəm idi, kimsə ona bir cızıq sala bilməzdi, amma bir şəhid övladı, bir məzlum görəndə qəlbi kövrəlirdi, kövrək almaz kimi çilənirdi.

Hadisələrin tufanları, fitnələr Hacı Qasimin iradəsində zərrə qədər mənfi təsir buraxmırdı, amma bu iradə ən möhkəm düşmən sıralarını yarır, qalalarını fəth edirdi.

O, nə bir mələk idi və nə də səmadan enmiş qeyri-adi varlıq. O, sizin çoxunuz kimi sadə bir ailədən çıxmışdı.

Hacı Qasim Süleymani almaz daşı kimi təbiətdə, torpaqların içində gizlənmişdi. Əgər İslam İnqilabı olmasaydı, o, öz həqiqi dəyərini heç vaxt tapmazdı. İnqilab vasitəsilə Allah onu kəşf etdi, üzə çıxartdı, yondu və cilaladı, onun vasitəsilə məzlumlara izzət verdi, vilayətə bəzək vurdu, sonda özü onu çox baha qiymətə satın aldı.

Bəli, dostum, almaz belə yarandı.

## Yoxsul bir ailədə dünyaya gəlib

Qasim Süleymani 1957-ci ildə İranın Kerman ostanında olduqca kasıb bir ailədə dünyaya göz açıb. Öz xatirələrində yazır ki, usaqlıq vaxtı hətta çörək belə yeməyə tapa bilmirdilər. Qışın şaxtalı havasında geyinməyə isti paltarları olmadığı üçün daim soyuqdan titrəyirdilər. Evdə çox nadir hallarda yaxşı yemək bişirilirdi. Özünün dediyinə görə, məktəbdə ona verilən peçenyenin dadı isə uzun müddət damağından getməyib.

Amma buna baxmayaraq Qasim Süleymaninin valideynləri əllərinə düşən tikəni başqaları ilə bölüşüblər. Həmişə evlərində qonaq olub. Qonaq üçün əllərindən gələni əsirgəməyiblər, öz boğazlarından kəsib qonağın süfrəsinə qoyublar. Hətta yaşadıqları yerdə ağır xəstəliyə düçar olduğu üçün hamı tərəfindən tərk edilən yaşlı bir qadını da evlərinə gətiriblər. O qadın

dünyasını dəyişənə kimi Qasim Süleymaninin ata-anası ona qulluq ediblər.

Buna görə kiminsə yoxsul ailədə dünyaya gəlməsi eyib deyil, eyib olan insanlığı unutmaqdır.

**İmam Əli (ə) buyurub:** ***«Tamahkar və paxıl sərvət sahibi səxavətli kasıbdan daha kasıbdır»***



## Balaca Qasim atasının borclarını ödəyir

Balaca Qasim öz valideynlərini çox sevirdi. O, həmişə anasına olan sonsuz məhəbbətindən söz açır, atasına dərin bağlılığından danışır. Qasim Süleymaninin on üç yaşı olanda atası ağır borca düşür. Ata-anasının narahatlığını görən balaca Qasim əlindən gələni etməyə qərar verir. O, şəhərə yola düşərək çox axtarışdan sonra iş tapıb, işləməyə başlayır. Bir müddət işləyəndən sonra öz qazandığı pul ilə atasının borclarını qaytarır. Beləliklə, on üç yaşlı Qasim möhkəm iradəsi ilə atasına əl tutaraq onu ağır borcdan xilas edir.

Ata-anaya, yaxınlara məhəbbət göstərmək, onların çətinliyini həll etməyə çalışmaq insanı xoşbəxt edər. Gənc Qasimin bu xüsusiyyəti onun bir qəhrəman kimi yetişməsində təsir qoydu.

**Allahın peyğəmbəri Həzrət Muhəmməddən (s) soruşdular:** ***«Allahın***

***sevdiyi ən üstün əməl hansıdır?» Həzrət cavab verdi: «Namazı vaxtında qılmaq» Təkrar soruşduşar: «Ondan sonra ən sevimli əməl hansıdır?» Həzrət cavab verdi: «Ata və anaya yaxşılıq etmək!» Üçüncü dəfə soruşdular: «Sonra üstün əməl hansıdır?» Allahın peyğəmbəri (s) cavab verdi: «Allah yolunda cihad etmək!»***

**(Biharul-Ənvar, c. 74, səh. 70)**



## Balaca Qasim vüqarlı idi

On üç yaşlı Qasim yad şəhərin küçələrində iş axtaran zaman bir restorana gəlib yetişir. O, həddindən artıq acmışdı. Restoran sahibindən xahiş edir ki, ona bir iş versinlər. Digər yandan restoranın ətirli yeməkləri ona elə təsir edirdi ki, az qala huşunu itirəcəkdi. Bu uşağın acdığını hiss edən restoran sahibi onun üçün yemək gətizdirir. Balaca Qasim çox şiddətli ac olmasına baxmayaraq yemək yeməkdən imtina edir. Özü deyir ki, qürurum mənə bu cür yemək yeməyə icazə vermirdi. Amma restoran sahibi ona «oğlum, ye» deyib təkid edəndən sonra yeməyi qəbul edir.

**İmam Əli (ə) buyurub:** ***«Ölümə razıyam, amma alçalmağa qətiyyən razı deyiləm, aza qane olaram, amma ona-buna əl uzatmağa heç vaxt (razı olmaram)»***

**(Nəhcül-Bəlağə, 396-cı hikmət)**



**Balaca Qasim özünə görə başqasını əziyyətə salmırdı**

Qasim Süleymani öz xatirələrində yazır ki, restoranda işlədiyi zaman iki hicablı xanım ora yemək yeməyə gəlirlər. Onlardan biri balaca Qasimdən soruşur: «Oğlum, adın nədir?» Yeniyetmə Qasim öz adını deyir. Qadın bildirir ki, gəl sənə kömək edim, sən işləmə, dərslərini oxu. Amma yeniyetmə Qasim cavab verir: «Xeyr, mən işləyə-işləyə dərslərimi də oxuyacağam!»

**Allahın peyğəmbəri Həzrət Muhəmməd (s) buyurub: *«Öz dünyan üçün elə işlə ki, sanki həmişə diri qalarsan və axirətin üçün elə işlə ki, sanki sabah öləcəksən»***

**(Tənbihul-xəvatir, c. 2, səh. 234)**



## Yeniyetmə Qasim idmanı sevirdi

Yeniyetmə Qasim fiziki cəhətdən zəif idi. Sonradan o, işlədiyi şəhərdə idmanla məşğul olmağa başlayır. Özünün dediyinə görə birinci zorxana idmanı ilə məşğul olmağa başlayır. Sonra isə karate və ağırlıqqaldırma idmanlarına gedir. Sonradan idmanla məşğul olmaq Qasim Süleymaniyə çox kömək etdi. O, zəif adamları müdafiə edir, gücü az olanlara kömək edirdi.

**İmam Sadiq (ə) buyurub: *«Allahın peyğəmbəri (s) bir gecə Fatimənin evinə gəldi. Həsən(ə) və Hüseyn (ə) onunla idilər. Peyğəmbər onlara dedi: «Durun, güləşin!» İmam Həsən və İmam Hüseyn (hər ikisi uşaq idilər) durub güləşməyə başladılar»***

**(Biharul-Ənvar, c. 103, s. 189)**



## Gənc Qasim Süleymani iffətini qoruyurdu

Qasim Süleymaninin gənclik vaxtı İran şahı ölkədə sürətlə əxlaqsızlığı yayırdı. O, bununla gənclərin başını şəhvətə qatmağa çalışırdı ki, onun etdiyi cinayətlərə etiraz etməyə vaxt tapa bilməsinlər. Şah ölkəyə özünün və ailəsinin şəxsi mülkü kimi baxırdı. Ölkədə əxlaqsızlıq yaymaqla, gəncləri fəsada çəkməklə öz hakimiyyətini bərkitməyə çalışırdı. Çünki şəhvətə və fəsada aludə olmuş gənclər şahın zülmlərinə etiraz etməyə vaxt belə tapa bilmirdilər.

Amma gənc Qasim Süleymani özünü fəsad və pis işlərdən qoruyurdu. O, öz xatirələrində yazır ki, idman və dini etiqadım məni pis yollara düşməkdən qoruyurdu. Eyni zamanda Qasim Süleymaninin ətrafında yaxşı insanlar da vardı və bütün bunlar gənc Qasimi pis yola düşməkdən qoruyurdu.

Buna görə çirkin işlərdən çəkinmək istəyən gənc öz oturub-durduğu adamlara da

diqqət etməlidir, əxlaqlı insanlarla yoldaşlıq etməlidir.

**Allahın peyğəmbəri (s) buyurub:** ***«Allah təqvalı gəncin vücudu ilə mələklərə öyünər və deyər ki, ey mələklər! Bu gənc bəndəmə baxın, öz gənclik şəvhətlərini mənə xatir kənara qoyub»***

**(Kənzul-ummal, h. 43057)**

## İmam Hüseyn (ə) məhəbbəti gənc Qasimə nicat verir

Gənc Qasim Süleymani İmam Hüseyni (ə) çox sevirdi. Amma hələ şahı pis adam kimi tanımırdı və bütün bu zülmlərin arxasında şahın dayandığını bilmirdi. Fikirləşirdi ki, bu zülmlər məmur özbaşınalığıdır, şahın xəbəri yoxdur. Bir dəfə söhbət əsnasında dostu şahın xalqa etdiyi zülmlərdən danışdı. Sonra dedi ki, şah İmam Hüseyn məclislərini keçirməyə icazə vermir.

Bunu eşidən gənc Qasim uca səslə qışqırdı: «Şah qələt edir!» Artıq gənc Qasim Süleymani başa düşdü ki, bütün fəsadların, zülümlərin arxasında həqiqətdə şahın özü dayanıb. Həmin gündən o, şah sistemi ilə mübarizəyə başladı.

**İmam Sadiq (ə) buyurub: *«Allah hər kimə xeyir çatdırmaq istəsə İmam Hüseynin (ə) məhəbbətini və onun qəbrini ziyarət etmək məhəbbətini onun qəlbinə salar»***

**(Vəsailuş-şiə, c. 14, s. 496)**

## Gənc Qasim kasıblara əl tuturdu

Qasim Süleymani öz xatirələrində yazır ki, 19 yaşı olanda bir yerdə işlədiyi bir neçə digər gənclə bir evi kirayə tuturlar. Ev kimsəsiz qoca bir arvadın idi. Qasim Süleymani və dostları həmin qadının yeməyini verirdilər. Bundan əlavə, qonşu evdə kasıb bir qadın körpəsi ilə qalırdı. Bu

qadının həyat yoldaşı dünyasını dəyişmişdi. Qasim Süleymani və dostları o dul qadına kömək edir, uşağını həmişə gətirib öz süfrələrinin başında otuzdurur, onunla birlikdə yemək yeyirdilər.

**Müqəddəs Quran bu haqda buyurur:** ***«Onlar öz iştahaları çəkdiyi (özləri yemək istədikləri) halda yeməyi yoxsula, yetimə və əsirə yedirərlər»***

**(İnsan surəsi, 8-ci ayə)**



## Gənc Qasim Süleymani əxlaqsızlığa qarşı mübarizə aparır

Şah İranın hər yerində əxlaqsızlıq yuvalarını açmağa davam edirdi. Gənc Qasim Süleymaninin yaşadığı Kerman şəhərində də bu cür əxlaqsızlıq yaymağa çalışırdı. Bir gün müğənni və rəqqasələri şəhərin açıq meydanına gətirirlər ki, orda çalıb oynasınlar. Şəhərin əhalisini də tamaşa üçün o meydana dəvət edirlər. Qasim Süleymani və dostları qərara alırlar ki, necə olursa olsun buna mane olsunlar. Onlar gecə vaxtı tamaşaya yığılanların 150-yə kimi motosiklet və velosipedlərinin təkərini partladaraq qaçıb gizlənirlər. Qasim Süleymani öz xatirələrində yazır ki, bu işi görən zaman tutulmaqdan əsla qorxmurdu. Bundan sonra da dəfələrlə buna oxşar işlər görüblər.

**İmam Əli (ə) buyurub:** ***«Möminin qeyrəti pak olan Allahdandır»***

**(Qurərul-Hikəm, 6395)**

## Gənc Qasim Süleymani qeyrətli idi

Bir dəfə Qasim Süleymani Aşura günü İmamzadə ziyarətinə gedir. Fürsətdən istifadə edərək həmin yerin yaxınlığında hoteldə işləyən dostuna da baş çəkir. Hər ikisi hoteldə pəncərə qabağında oturub söhbət edirlər. Bu zaman görürlər ki, küçədə polis yolla keçən cavan qıza sataşıb, ona söz atır. Bunu görən Qasim Süleymani sürətlə aşağı qaçır və həmin polisə yaxınlaşaraq bir neçə yumruq zərbəsi ilə onu yerə yıxır. Bunu görən ayrı polislər Qasim Süleymanini tutmaq istəyirlər. O, qaçaraq hotelə girir və çarpayıların birinin altında gizlənir. Polislər hotelə tökülüşürlər. İki saat onu axtarsalar da tapa bilməyib hoteli tərk edirlər. Qasim

Süleymani xatirəsində deyir ki, mən artıq heç nədən qorxmurdum.

**Allahın peyğəmbəri Həzrət Muhəmməd (s) buyurub:** ***«Həqiqətən, qeyrət imandandır, qeyrətsizlik isə nifaqdandır»***

**(Kənzul-ummal, 7065)**



## Gənc Qasim Süleymani İmam Xomeyninin fikirləri ilə tanış olur

Gənc Qasim vaxtını boş keçirmirdi. O, boş vaxt tapan kimi idmanla məşğul olurdu. Bir gün Məşhəd şəhərinə İmam Rza (ə) ziyarətinə gedir. Ziyarətdən sonra şəhərdə idman zalı axtarır və bir zorxana zalı tapır. Orda olan gənc idmançılarla tanış olur. O idmançılardan biri Qasim Süleymanidən soruşur: «Sən İmam Xomeynini tanıyırsan?»

-Xeyr - deyə, gənc Qasim cavab verir.

- İndiyə kimi Xomeyninin adını eşitmisən? - deyə, ondan soruşurlar.

- Xeyr, eşitməmişəm - Qasim cavab verir.

Onlar Qasim Süleymaniyə İmam Xomeyni haqqında məlumat verirlər. Sonra isə gizli olaraq bir şəkil ona verib deyirlər:

- Bu, İmam Xomeyninin şəklidir. Bunu heç kim görməsin. Yoxsa SAVAK (şah vaxtında İranın daxili təhlükəsizlik xidməti) səni həbs edər.

Gənc Qasim İmam Xomeyninin şəklini köynəyinin altında gizlədib, qaldığı evə qayıdır. Evdə bir neçə saat şəklə tamaşa edir. O gündən Qasim Süleymani İmam Xomeyniyə xüsusi məhəbbət hiss edir.

Qasim Süleymani öz şəhərinə qayıdandan sonra İmam Xomeyninin şəklini dostlarına göstərir. Dostları qorxu içində deyirlər:

- Bu şəkli hardan gətirmisən? Əgər bu şəkli SAVAK üstündə tapsa səni məhv edər.

Qasim Süleymani öz xatirələrində deyir ki, mən heç nədən qorxmurdum. İnqilab atəşi vücudumu bürümüşdü və hər yerdə qorxu hissi keçirmədən təbliğ edirdim.

**İmam Kazim (ə) buyurub:** ***«Qum əhlindən bir kişi insanları haqqa dəvət edər, bir dəstə insan onunla birləşər, onlar polad parçaları kimi möhkəmdirlər. Şiddətli küləklər onların addımlarını titrətməz, onlar döyüşdən yorulmazlar, qorxu bilməzlər. Onlar Allaha təvəkkül edərlər və xeyirli son təqvalılarındır»***

**(Biharul-Ənvar, c. 57, s. 216)**



## Qasim Süleymani döyülür, amma yolundan dönmür

Qasim Süleymani divarlara İmam Xomeyninin adını və bəzi şüarları yazırdı. Yazdığı ən məşhur şüarlar bunlar idi: «Salam olsun Xomeyniyə!» və «Ölüm olsun şaha!»

Qasim Süleymani xatirələrində deyir ki, mən qorxmadan təbliğ edir, şah və ailəsi haqqında pis danışırdım.

Gənc Qasim Süleymani sürücülük vəsiqəsi almaq üçün imtahan verir və imtahandan keçir. Vəsiqəni almaq üçün idarəyə müraciət edəndə orda polisilər onu tutub, bir otağa salırlar. Orda bir neçə polis zabiti Qasim Süleymanini ağır söyüşlərlə təhqir edərək, huşunu itirənə qədər onu döyürlər. Təsadüfən bu idarə bir zaman Qasim Süleymaninin işlədiyi hotelin yaxınlığında yerləşirdi. Ordakı polis zabitlərindən biri bu hotelin sahibi ilə tanış idi və məsələni ona xəbər verdi. Hotelin

sahibi Qasim Süleymanini düzlüyünə görə çox sevirdi. Ona görə özünü tez pols idarəsinə çatdıraraq Qasim Süleymanini ordan çıxartmağa müvəffəq olur.

Hacı Qasim Süleymani xatirələrində deyir ki, idmançı olmağına baxmayaraq üç gün bədəninin ağrılarından tərpənə bilməyib. Amma buna baxmayaraq yeni hiss yaşayırdı. Artıq döyülmək və işgəncə qorxusu onu narahat etmirdi. Artıq İmam Xomeyniyə olan məgəbbət sanki ona vurulan zərbələrlə yanaşı vücudunun dərinliyinə kimi nüfuz etmişdi.

**İmam Əli (ə) buyurub:** ***«Əgər bir işdən qorxdunsa, özünü onun içinə at, çünki bir şeydən çəkinmək o işə girişməyin qorxusundan daha böyük olur»***

**(Nəhcül-Bəlağə,166-cı hikmət)**


درود بر خمینی

## Yoxsul daxmalardan çıxan almazlar

İslam dini həmişə məhrum təbəqələrə, yoxsul insanlara, haqsız yerə zülmə məruz qalanlara arxa, pənah olub, onların hüquqlarını müdafiə edib, onların insanlıq kəramətini qoruyub. Buna görə bu cür insanlar İslam dininə sədaqətlə xidmət ediblər, onun uğrunda fədakarlıq ediblər. Haci Qasim Süleymani kimi çoxlu sayda insanın İslam inqilabına, İmam Xomeyniyə məhəbbət və sədaqətinin əsas səbəblərindən biri bu idi. Beləliklə, zalım rejimlərin zamanında yoxsulluqlarına görə təhqir olunan insanlar İslam inqilabı ilə öz həqiqi dəyərlərini tapdılar. Onların içindən Hacı Qasim Süleymani kimi çoxlu şəxsiyyət üzə çıxdı, yoxsulluq qubarı çöhrəsinə qonmuş bu insanlar tədricən qiymətli almaz daşları kimi üzə çıxmağa başladılar. Möhkəm, yolunda olan çətinlikləri kəsib keçən, eyni zamanda qəlblərində ən ülvi insani hisslər yaşadaraq, zəif və yetimlərin, şəhid övladlarının

müqabilində kövrək, qələbə və müdriklik rəmzinə çevrlən qəhrəmanların taleyi bü cür idi.

Haci Qasim Süleymani xatrələrində deyir ki, o, şəhərdən kəndə qayıdan zaman artıq əksər cavanların inqilabi fikirdə olduğunu müşahidə etdi. Bu cavanlar demək olar ki, hamısı yoxsul təbəqənin üzvləri idilər. Bu təbəqənin cavanlarının ancaq az bir hissəsi İslam dininə düşmən olan zalım hakimiyyətə bağlı idilər.

**Allahın peyğəmbəri buyurub: *«Həqiqətən, siz zəiflər (kasıb təbəqə) vasitəsilə yardım olunursunuz!»***

**(Kənzul-ummal, 6049)**

## Hacı Qasim Süleymani necə adam idi?

Hacı Qasim Süleymani ömrünün qədrini bilir və vaxtını boş keçirməzdi. Gənc

yaşlarından İslam dinini qorumaq, məzlumlara kömək etmək, zalımlarla mübarizə aparmaq üçün İslam İnqilabının Keşikçilər Korpusuna üzv oldu. Allah yolunda ixlasla, yorulmadan xidmət edən Hacı Qasim Süleymani bir müddət sonra ölkə xaricində olan məzlumları müdafiə məqsədi ilə təsis olunmuş «Qüds Korpusu»-nun komandanı seçildi. O, çoxlu kitab oxuyar, çox vaxt zikr halında olardı. Yetim uşaqları görəndə zərif qəlbi sızıldayar, kövrələrdi. Allah üçün çalışmaqda yorğunluq bilməzdi. Dostlardan biri mənə danışdı ki, Hacı Qasim Süleymani ömrünün son günlərində iclasların birində demişdi: «Baxın, artıq mənim 62 yaşım var. Bədənimdə yaraların ağrısı məni çox incidir. Amma buna baxmayaraq mən gündə bir neçə saatdan çox yatmıram ki, hədəfimizə çata bilək. Bunun üçün çox işləmək lazımdır!»

General Qasim Süleymani heç vaxt özünə xüsusi yemək və içmək tələb etməzdi,

əsgərlərin yediyindən yeyər, içdiyindən içərdi. Onlarla zarafat edər, onlarla bir yerdə səngərlərdə quru torpaq üstündə oturardı. O, heç vaxt özünə xüsusi istirahət yeri tələb etməzdi. Şəhid Hacı Qasim Süleymani özünü əziz İslam dininin sadə bir əsgəri hesab edərdi. O, hər şeydə və hər yerdə Allahın razılığını axtarardı. Onun bütün həyatı cihad idi. Yorulmadan cihad meydanlarında, gecə-gündüz çalışırdı. O, öz möhkəm iradəsi ilə mümkün olmayan işlərin ardınca gedər və onları mümkün edərdi. Buna görə uca Allah da onu sevdi, seçdi və öz yanına şəhid kimi apardı.

**Uca Allah buyurur:** ***«Şübhəsiz ki, Allah öz yolunda möhkəm divar kimi səf çəkib döyüşənləri sevər»***

**(Səff surəsi, ayə 4)**

## Hacı Qasimi ilk dəfə necə gördüm?

Müəyyən bir zaman kəsimində bəzi işlərin icrası üçün Hələb şəhərinin aeroportunda idim. Uzun müddət idi ki, aeroport mühasirə altındaydı. Belə bir gərgin vəziyyətdə Hacı Qasim Süleymanini gətirən kiçik təyyarə eniş etdi və biz dostlarla birgə Hacını qarşılamağa getdik. Hacını birinci dəfə əyani surətdə orada gördüm. Elə o anlarda bəzi amerikalı qüvvələrin də yaxın məntəqədə olmaları haqda xəbər gəldi. Hacı Qasim şəxsən o zonaya gedəcəyini bildirdi. Təbii ki, bəzi təhlükəli post-patrul xidmətinin keçidlərindən ötmək zərurəti də qaçılmaz idi. Əslində Hacı öz gözləri ilə vəziyyəti maüşahidə etmək, amerikalıların zonadakı mövcudluğu ilə yaxından xəbərdar olmaq istəyirdi. Təhlükəli şəraitə baxmayaraq papağını qaşlarına qədər aşağı salıb yalnız bircə sürücünün müşayiəti ilə məqsədinə doğru getdi və istədiyi məlumatı əldə edərək qayıtdı.

**İmam Əli (ə) buyurub:** ***«İzzətin yarısı şücaətdir»***

**(Qurərul-hikəm, 1662)**

## Hacı Qasim Süleymani var-gücü ilə Allah üçün iş görürdü

Bir dəfə Laziqiyyə Hava Limanında idik. Birdən Hacı Qasim və onu müşayiət edən dəstənin avtomobilləri gəldi. Rus zabitləri ilə iclas üçün gəlmişdilər. Maşının qapısı açılan kimi Hacını gördük. Görkəmindən çox yorğun olduğunu anladıq. Biz onun necə yorğun olduğunu gözlərimizlə gördük. Maşından düşəndə yorgunluqdan büdrədi və iki nəfər qolundan tutaraq kresloya tərəf apardılar. Biz də onun üçün qəhvə gətirdik. Onunla gələnlər bəziləri o qədər yorğun idilər ki, maşından düşən kimi həyətdə asfaltın üstündə uzanıb dərin yuxuya getdilər. Yoldaşlarından biri dedi ki, Hacı

Qasim və dəstəsi Deyruz-Zurun «Badiyə» (səhra) adlanan yerində kəşfiyyatda idilər və dörd gündür ki, gözlərinə yuxu getməyib. General elə yorğun olmasına baxmayaraq, iclasda iştirak etdi. Yadımdadır, hacı Qasim iclasdan sonra hava limanında təyyarəyə qalxarkən belə, onunla gələnlərin bəziləri son ana qədər, hələ də yorğunluqdan quru və soyuq asfaltın üstündə dərin yuxuda idilər. Güc-bəla ilə onları yuxudan qaldırdıq…

**İmam Kazim (ə) buyurub:** ***«Mömin az danışar və çox iş görər, münafiq isə çox danışıb az iş görər»***

**(Tuhəful-uqul, s. 397)**

## Vilayətin möcüzəsi

Hacının rusların iştirakı ilə baş tutan ilk iclasdan sonra dostlarım bu sualı mənə vermişdilər: «Hacı diplomatik müzakirədə necə idi?» Mənim cavabım bu olmuşdu: «O,

viayətin möcüzədir!» Mənim tanıdığım Qasim Süleymani sözün əsl mənasında professional bir diplomat idi. Danışanda mütaliə əhli və yüksək intellekt sahibi olduğu aydın şəkildə sezilirdi. Çox yüksək zəkalı, savadlı və ziyalı idi. Mən Qasim Süleymaninin bəzən Rusiya rəsmiləri və generalları ilə olan görüşlərində onun davranışlarında İslam dininin qüdrətinin şahidi oldum. Bəlkə də bəzi vəzifə sahibləri Qasim Süleymani qədər özlərini Əmirəl Möminin Əlinin (ə) bayraqdarı olduğu və hansı cəbhəyə aid olduqlarını anlamayıblar. Qəlblərin Sərdarı şəhid Süleymani bunu dərk etdiyi üçün, məhz elə bu təfəkkürə arxalanaraq diplomatik müzakirələrdə İslamı layiqincə təmsil və müdafiə edirdi. General Süleymani gələndə yuxarı başda əyləşmiş rus generallarının qalxıb ona yer vermədikləri bir iclas olmazdı. Rusiya qərargahlarına gedəndə belə yüksək rütbəli hərbçilər gəlib onunla bir masa arxasında üzbəüz əyləşməyi özlərinə

şərəf bilirdilər. Hətta Hacı Qasimin acıqlı səsinin onlara ucaldığı hallar olsa belə, rus hərbçilərində heç vaxt belə bir cürət olmazdı. Şəhid Süleymani sırf hərbçi olması ilə yanaşı həm də yüksək səviyyəli mahir bir diplomat idi. Taraz söz qabiliyyəti, dəqiq hesablanmış cümlə quruluşu olan bir natiq idi. Onun bütün rəftarlarında sanki ilahi bir nəzarət hiss olunurdu. Əl-qolunun hərəkəti, nə zaman danışması və təbəssümü belə yerli-yerində idi.

**İmam Sadiq (ə) buyurub:** ***«Allah mömini öz əzəmət nurundan və böyüklük cəlalından yaradıb...»***

**(Biharul-ənvar, c.64, s.125)**

## Hacı Qasim Süleymani bütün müqavimət cəbhəsinin sevimlisi idi

Bir dəfə bir rus generalı ilə birlikdə avtomobildə gedirdik. O, birdən məndən

Hacı Qasimə qarşı sevgimin nə dərəcədə olduğunu soruşdu. Mən dedim: «Mən özümü ona fəda edə biləcək həddə sevirəm». Dedi: «Mən bu cümləni birinci dəfə deyil ki, eşidirəm. Çünki dəfələrlə eynilə bu sualı onun tabeçiliyində olan hərbçilərə vermişəm və eynilə bu cavabı almışam». Rus generalı sonra davam edərək dedi: «General Süleymani haraya gedirsə, əsgərləri onun ətrafına toplaşır, onu öpüb-qucaqlayırlar. Məlum məsələdir ki, onu səmimi qəlbdən sevirlər». Bundan sonra bu yüksək rütbəli zabit əlavə etdi: «Beynəlxalq səviyyədə əsgərlərinin rəğbətini qazanmış belə bir hərbçiyə çox nadir hallarda rast gəlmək olar». Onun üzünə baxdım. Hiss etdim ki, Hacı Qasim Süleymaniyə olan bu məhəbbətin arxasında ilahi qüvvənin dayandığını dərk etmirdi.

**İmam Səccad (ə) buyurub:** ***«İlahi, məhəbbətimi öz bəndələrinin qəlbinə sal. Məni sev və sevimli et»***

**(Biharul-ənvar, c. 92, s. 298)**



## Hacı Qasim Süleymani ruslarla iclası necə idarə etdi?

Rusiya Federasiyası ordusunun general polkovniki A. L. deyirdi ki, mən general Süleymaninin avtobioqrafiyasını oxumuşam. Təqribən mənim həyatım onun həyatına bənzəyir. Amma aramızda bir fərq var; Mən onun qazandığı məqama çata bilməmişəm. A.L. General Süleymaniyə çox ehtiram bəsləyirdi. Mən A.L.-nın «General Süleymani mənim əfsanəvi örnəyimdir» dediyini onun öz dilindən eşitmişəm. Bu sözün altında dərin məna gizlənir. Dünyanın ən güclü ordularından birinə sahib olan Rusiya kimi bir ölkə generalı «General Süleymani mənim əfsanəvi örnəyimdir» deyib açıq-aşkar etiraf etməsi kiçik məsələ deyil. Onu da qeyd edim ki, L. bu sözləri mənə hələ General Süleymani ilə ilk görüşünə gedərkən demişdi. General A. L. o zaman Rusiyanın Suriyadakı qoşunlarının baş komandanı idi. A. L. Rusiyanın milli

qəhrəmanı adına layiq görülmüş bir generaldır. Elə bu cəhətdən də onun Şəhid Süleymaninin əfsanəvi bir general olması haqda etirafı əhəmiyyət kəsb edir. Əlbəttə sonralar da general A. L. Sərdar Süleymaniyə xüsusi salam çatdırmamızı istəmişdi. Rus generalı ilə General Süleymani arasındakı danışıqlarda nələr baş verdi? O gün A. L. çox həyəcanlı idi. Həyəcanını gizlətməyə çalışsa da, əl-qolunun hərəkətindən bunu anlamaq çətin deyildi. Hacı Qasimlə görüşəcəyi üçün üzündə sevinc hissi də müşahidə olunurdu. Görüş başladı. A. L. çox ehtiramla sözə başlayıb General Süleymani ilə səmimi ünsiyyət qurmağı bacardı. O görüşdə Rusiya Müdafiə Nazirliyinin rəsmi nümsyəndəsi də iştirak edirdi. Bu rəsmi nümayəndə sanki özünü göstərmək istəyirmiş kimi bir jestlə üzünü Qasim Süleymaniyə tərəf tutub nisbətən yüksək səslə danışmağa başladı. Əlbəttə, onun bu rəftarında məqsədi hörmətsizlik

etmək deyildi. Sadəcə məğrurluq xarakterli bir davranış idi. Mən bundan sonra Hacı Qasimin əsəbləşib yumruğunu masaya döyəcəyini, yaxud da hər-hansı ciddi bir reaksiya verəcəyini gözləyirdim. Sərdar Hacı Qasim Süleymani vüqarla ona qulaq asırdı, sözləri dinlədikdən sonra üzünü iclasda iştirak edən Suriya rəsmilərinə tutub dedi: «Bu adamın cavabını özünüz verərsiniz!» Bu sözün mənası açıq-aşkar məlum idi. Yəni, belə təkəbbürlü insan hətta mənim cavabıma belə layiq deyil. Suriyalı rəsmi də qətiyyətlə General Qasim Süleymanini müdafiə edib rus rəsmisinin cavabını verdi. Sonra isə Hacı Qasim o adama heç əhəmiyyət vermədən üzünü general A.L.-ə tutub söhbətinə davam etdi. Mən o iclasda RMN rəsmisinin Qasim Süleymaniyə qarşı yersiz qürurunun necə sındığının və necə pərt olduğunun şahidi oldum. İclas bitdikdən sonra o adam Hacı Qasim Süleymaninin şəxsiyyətini dərk etdiyi üçün ona yaxınlaşıb dedi: «General

Süleymani, icazə verin, sizinlə yaxından görüşüm…»

**İmam Əli (ə) buyurub:** ***«Vüqarlı olmaq kişinin yaraşığıdır»***

**(Qurərul-hikəm, 4744)**

## Türkmənlərin soyqırımının qarşısı necə alındı?

İraqda türkmənlərin yaşadığı Amorli şəhərinə qara buludlar çökmüşdü. İŞİD sürətlə şəhərə yaxınlaşır və onu mühasirəyə almağa cəhd göstərirdi. Onlar şəhərin bütün əhalisini məhv edəcəklərinə and içmişdilər. Amorli əhalisi Türkiyəyə kömək üçün müraciət etsələr müsbət cavab ala bilməmişdi.

Bu zaman Hacı Qasim Süleymani bir dəstə ilə sürətlə Amorli tərəfə hərəkət etdi. Şəhərin yaxınlığında Tuz Xurmatu dağında qərarlaşan general yaxınları ilə plan işləyirdi.

Şəhər artıq mühasirədə idi. Hacı Qasimin yanında olanlardan biri binoklla şəhərə baxaraq dedi: «Hacı, Amorlidə vəziyyət pisdir!» Hacı Qasim Süleymani binoklu ondan alaraq şəhərə baxdı və cavab verdi: «Mən Amorli görmürəm, mən Kərbəla görürəm! Sanki Əhli-Beyti (ə) görürəm ki, mühasirəyə düşüblər!» Hacı Qasim binoklu gözlərindən götürüb, onlara tərəf dönəndə şiddətlə ağladığını gördülər. Göz yaşları Hacının günəşdən yanmış yanaqlarını islatmışdı. Hacı Qasim şəhəri azad etmək planını sona çatdırdı və sonra ətrafındakılara dedi: «Hesab edin ki, Kərbəlaya İmam Hüseynə (ə) kömək etməyə gedirik!»

Hacı Qasim Süleymani və dostları İmam Hüseynə (ə) kömək niyyəti ilə əməliyyata başladılar. Onlar Tuz Xurmatu ilə Amorli arasında yerləşən Süleyman Big yaşayış məntəqəsini dövrə vuraraq Amorli tərəfə hərəkət etdilər. Sanki Kərbəla səhrasında Aşura günü İmam Hüseynin (ə)

mühasirədə tənha qalan ailəsinə və uşaqlarına kömək üçün tələsirdilər. İldırım sürəti ilə düşmənə hücum edərək onu tar-mar edib, Amorli şəhərini mühasirədən azad etdilər.

**Allahın peyğəmbəri (s) buyurub:** ***«Hər kəs bir nəfərin müsəlmanları köməyə çağırma fəryadını eşitsə və ona kömək etməsə, müsəlman deyil!»***

**(Kafi, c. 2, s. 164)**

## Misilsiz sərkərdə

Bu-Kamal məntəqəsinin azadlığı əməliyyatlarında Rusiya hərbçilərinin o vaxtkı komandanının fikrincə (O dövrdə rus komandanlar 6 ayda bir dəfə dəyişdirilirdi) bizi həlli mümkün olmayan çətinlikər gözləyirdi. Deyilən müddət ərzində Bu-Kamalın azad olunması qeyri-mümkün bir iş idi. General Qasim Süleymaninin rus

generallarla iclasında bu komandan təkid edirdi ki, Bu-Kamalı azad etmək imkansız bir işdir. Çünki, ABŞ, həmçinin ABŞ-a tabe kürd qüvvələri 6-7 ay əməliyyatdan sonra belə Bu-Kamalı İŞİD terroristlərinin cəngindən çıxara bilməmişdilər. Bu-Kamalın strateji mövqeyi İŞİD-ın var qüvvəsi ilə bu məntəqəyə diqqətinin gücləndirilməsinə səbəb olmuşdu. Hacı Qasim Süleymani isə deyirdi ki, mən gedib özüm bu işi bitirəcəyəm. O, Bu-Kamala getdi və dediyi kimi, minimum hərbi texnika və qüvvə ilə amerikalıları belə əldən salan bu məntəqəni İŞİD vəhhabi terrorçularından təmizlədi. Bu uğurlu əməliyyatdan sonra rus generallarının bu etirafını öz qulaqlarımla eşitdim: «Bu əməliyyatın hərbi akademiyalarda tədris olunması zəruridir».

Qasim Süleymaninin bu bacarığı və fərasəti onun ixlasından və Allaha bağlılığından irəli gəlirdi.

**Allahın peyğəmbəri (s) buyurub:** ***«Möminin fərasətindən çəkinin, çünki o, uca Allahın nuru ilə baxır»***

**(Kənzul-ummal, 30730)**

## Şəhid Hacı Qasim Süleymani insaflı idi

Dostlardan biri mənə Şəhid Hacı Qasim Süleymani haqqında maraqlı bir əhvalat danışdı. O, işinə görə bir müddət müəyyən bir məntəqədə olub. Gündüzlər işini görür, gecələr isə bir otaqda istirahət edirdi. Yaxınlıqda iş görən gənc bədəvi ərəblər tez-tez otağa girir, səs-küy edərək istirahətini pozurdular. Buna görə gündüz bəzən yuxulu olurdu və işinin keyfiyyətinə təsir edirdi. Dostumuz danışırdı ki, soyuq gecələrin birində otaqda uzandığı zaman qapının açıldığını hiss edir və kimsə içəri girir. Üzü divara uzandığından otağa girəni görmür. Fikirləşir ki, yenə ərəb cavanlardır. Ona görə

əsəbi halda «Çıxın çölə, qoyun istirahət edək!» deyir. İçəri girən çölə çıxıb qapını yavaşca bağlayır.

O, danışır ki, sübh namazına duranda yanına gəlib «gecə kimin üstünə qışqırdın, bilirsənmi?» - deyə, soruşurlar. «Xeyr» - deyə, dostumuz cavab verir. Ona deyirlər ki, gecə general Qasim Süleymani bura gəlmişdi, bir az istirahət etmək üçün otağa girdi. Sən narahat olanda Hacı Qasim otaqdan çıxdı və bizə də bildirdi ki, səni narahat etməyək, yorğunsan, istirahət etməlisən. General istirahət etmək üçün şəraiti olmayan soyuq bir yerdə bir saatlıq uzandı, sonra isə durub işinin dalınca getdi.

Dostumuz bunu danışanda təəssüf hissi keçirirdi ki, niyə Hacı Qasim Süleymanini tanımayıb və bu cür rəftar edib.

Bəli, general Hacı Qasim Süleymani Yaxın Şərqin ən qüdrətli şəxslərindən

olmasına baxmayaraq, sadə bir zabitlə bu cür insaf və fədakarlıqla rəftar etdi.

**İmam Əli (ə) buyurub: *«Qüdrətli olmağın zəkatı insafdır»***

**(Qurərul-hikəm, 5448)**

### Hacı Qasim məktəbinin yetirmələri

Deyr-Əzzor ətrafında olan bir neçə evdən ibarət balaca kənd boşalmışdı. Bu məntəqədə İŞİD çox fəal təbliğat apara və yerli sakinlərin bir çoxunu cihad adı ilə öz sıralarına çəkə bilmişdi. Müqavimət qüvvələri bu məntəqəyə girəndən sonra müvəqqəti olaraq içində heç nəyi olmayan boş evlərdə sakinləşmişdilər. Gündüz səhranın qızmar günəşindən və gecələr iliyə işləyən soyuğundan qorunmaq çətin idi. Üstəgəl neçə həftə yemək gəlib çatmırdı. Ancaq Mərakeşin istehsal etdiyi bibərli balıq konservləri əlimizdə vardı. Sübh, günorta və

axşam bu soyuq, acı bibərli konservləri yeməkdən döyüşçülərin mədələrində problem yaranmışdı. Qəribə bu idi ki, həyətlərdə mal-qara və qoyun-quzu olmasına baxmayaraq heç kim onlara dəymirdi. Çünki dostların etiqadı bu idi ki, bu mal-qaranın yiyəsi hətta bizimlə döyüşən İŞİD terrorçusu olsa belə bizim onların malından icazəsiz isrigadə etmək haqqımız yoxdur. Əlbəttə, bizə yaxın olan rus əsgərləri bu qoyunlardan kəsir, kabab çəkirdilər. Onların içində müsəlmanlar da vardı. Bizi kabab yeməyə dəvət etsələr də ac qarnımızın meylinin əksinə olaraq yeməkdən imtina edirdik. Çünki etiqadımız bu idi ki, biz bura fəsad üçün yox, islah etməyə gəlmişik.

Baxın, əziz dostlar, Hacı Qasim Süleymani məktəbində tərbiyə almış müqavimət cəbhəsinin əsgərləri belə fədakarlıq edirdi.

**İmam Əli (ə) buyurub:** ***«Fədakarlıq ən üstün ibadət və ən şanlı alicənablıqdır»***

**(Qurərul-hikəm şərhi, c. 1, s. 300, h. 1148)**

## Şəhidlər çox diqqətli idi

Bir dəfə acmış vəziyyətdə qaldığımız evə qayıtdıq. Birdən gözüm daş eyvandan asılmış xurma salxımlarına sataşdı. Heç kimin bu salxımlara əl vurmamağı bir az mənə təəccüblü gəldi. Bir xurma qopardaraq ağzıma atdım və çeynəməyə başladım. Birini də yanımda duran iranlı, əsli Şiraz şəhərindən olan dostuma təklif etdim. Dostum təəccüblə mənə baxanda birdən yadıma düşdü ki, bu xurmalar ev yiyəsinindir və bizim bunları yeməyə haqqımız yoxdur. Evlərindən soyuqdan və qızmar günəşdən qorunmaq üçün məcburi istifadə edirik, amma zərurət miqdarından artıq heç nəyə toxunmağa icazəmiz yoxdur. Tez ağzımdakı

xurmanın artığını çıxarıb yerə atdım. İstifadə etdiyimiz evlərdə əgər qab-qacaq sınsaydı, yaxud nəsə zərər vursaydıq pulunu qoymağı qərara almışdıq.

Bu şirazlı gənc doğrudan çox imanlı idi və hətta o evi namaz qılmaq üçün də istifadə etmirdi. Halbuki buna icazəmiz vardı. Namaz qılmaq üçün çölə gedərdi və orda ibadət edərdi. Ona çox bağlanmışdım. İş elə gətirdi ki, bir məsuliyyət üçün bir həftəliyə ayrı məntəqəyə göndərildim. Qayıdanda bu dostumun şəhid olduğunu bildim. Gecə vaxtı mühasirəyə salaraq onu yaralamış, əsir götürüb başını kəsərək çöllərə düşmüş vəhşiləşmiş itlərə atmışdılar. Başını tapa bilmədik.

***«Allah yolunda öldürülənlərə (şəhid olanlara) «ölü» deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin siz bunu dərk etmirsiniz»***

**(Bəqərə surəsi, 154-cü ayə)**

## Hacı Qasim məktəbinin iffətli yetirmələri

Deyr-Əzzor məntəqəsini İŞİD-dən təmizləyəndən sonra onların ailələri dövlət idarələrində qeydiyyatdan keçmək üçün şəhərdə idarəyə müraciət etməli idilər. İdarəyə gedən üç post vardı. Birində suriyalılar, birində ruslar və birində də biz dururduq. Müraciət edən İŞİD ailələri əsasən cavan xanımlar və uşaqlar idi. Demək olar ki, həmişə idarənin yerini dəqiqləşdirmək üçün bizə yaxınlaşırdılar. Səbəbi isə bizim cavanların onlarla çox ehtiramla rəftar etməsi idi. Onsuz da bu çarəsiz insanların çoxu öz ailə başçılarını itirmişdilər və qəlbləri sınıq idi. Bizim dostlar çalışırdılar ki, heç vaxt cavan xanımların üzünə baxmasınlar, uşaqlarını nəvaziş edirdilər ki, özlərini rahat hiss etsinlər. Onlar da bizə «ey qardaşım» deyə müraciət edirdilər. Ən maraqlı səhnə bu idi ki, onlardan bəziləri bizə ehtiyatla yanaşır, şübhəsiz ki, bizə qarşı düzgün olmayan təsəvvürə əsasən əxlaqa və insanlığa

sığmayan rəftar, yaxud təklif edəcəyimizi gözlədikləri halda əksini görəndə necə dəyişilir və tam səmimi qəlblə «ey mənim qardaşım» deyə müraciət edirdilər.

**İmam Əli (ə) buyurub:** ***«Üstün əxlaq iffətli və fədakar olmaqla kamil olur»***

**(Qurərul-hikəm şərhi, c.6, s. 396, h. 10745)**

## Hacı Qasim məktəbində düşmənlə rəftar

Qaldığımız yer gecələr çox soyuq olurdu, hərəmizə bir adyal düşürdü. Onu özümüzə bükərək beton döşəmənin üstündə yorğunluqdan daş kimi düşüb yatırdıq. Qapıda bir suriyalı cavan oğlan keşikçi qalırdı. Ətraf səhra idi və İŞİD-çilər tez-tez qəfil gecə həmlələri həyata keçirirdilər. Tərslikdən keşikçi duran suriyalı biz yatan kimi gedib özünə gizlin yer tapıb səhərə kimi yatırdı. Fikirləşdik ki, cavan uşaqdır və gecə qorxduğu üçün həqiqətdə bir gizli yerə girir,

orda yuxulayır. Ona görə əziyyət etmirdik. Amma neçə dəfə təsadüf bizi ölümdən xilas etdi. Gecə çölə çıxan dostlarımız qaldığımız yerə yaxınlaşmaq istəyən qara fiqurları müşahidə etmiş və atəş açaraq bizi də yuxudan durquzmuşdular. Gölgələr aradan çıxmağa müvəffəq olurdular. Gecə yaxşı bağlanmayan dəmir qapının üstündə bir qaşıq qoyurdum ki, əgər içəri girmək istəsələr qaşığın beton döşəmə üstünə düşməsi səbəbindən yuxudan dura bilək. Silahlarımızı qucaqlayıb yatırdıq ki, həssas anda sürətli rəftar edə bilək. Bir gecə səs-küyə durdum və silahı götürüb çölə çıxdım. Gənc bir oğlanı tutmuşdular. Əynində suriyalı əsgərlərin libası olsa da saç tərzi, üst-başının çirkinliyi şübhə doğururdu. Otağa gətirdilər. Azca sorğu-sualdan sonra məlum oldu ki, İŞİD-çidir və kəşfiyyata gəlibmiş. Heç kim ona əziyyət etmədi və onu vurmadı. Hamı da bilirdi ki, bu adam səhra şəraitində ac və susuz ola bilər. Dərhal ondan ac olub-

olmadığını soruşdular. Gənc ac olduğunu deyəndə dostlarımız öz yeməklərini ona verməkdə sanki yarışa girdilər. O zaman artıq bizə gündə bir dəfə yemək gəlirdi. Beləliklə bir nəfər öz yeməyini ona verdi. Yeməyi yeyəndən sonra İŞİD-çi gənc bizə bir az məlumat verdi və xahiş etdi ki, onu yanımızda saxlayaq. Ancaq qanuna əsasən onu Suriya orqanlarına təhvil vermək məcburiyyətində idik.

**İbn Mülcəm Əlini (ə) agır yaralayandan sonra əsir düşdü. İmam Həsən (ə) İmam Əli üçün bir az süd gətirdi. Həzrət Əli (ə) süddən bir az içdi və dedi:** ***«Qalanını apar əsirə (İbn Mülcəmə) ver»*** **Sonra əlavə etdi:** ***«Səni boynunda olan haqqıma and verirəm. Nə yeyirsinizsə, ondan İbn Mülcəmə də yeməyə verin və geyindiyiniz paltardan da geyinməyə verin!»***

**(Biharul-ənvar, c.42, s.289)**



## İŞİD-çi gənc necə şəhid oldu?

Deyr-Əzzor uğrunda çox ağır döyüşlər getdi. Müqavimət İŞİD qüvvələrini çətinliklə də olsa şəhərin qalan məhəllələrindən sıxışdırıb çıxara bildi. Həmin günlərdə çox maraqlı bir əhvalat baş verdi. Sonralar həmin hadisənin xülasəsini müxtəif medialarda, o cümlədən, bəzi Azərbaycan dilində olan medialarda da gördüm. Fatimiyyun döyüşçüləri gecə vaxtı Fərat çayında bir adadan üzüb keçmək istəyən bir neçə nəfəri müşahidə edirlər. Başa düşürlər ki, bunlar İŞİD qalıqlarıdır. Onları diri əsir götürə bilirlər. Bunlardan biri təqribən on beş yaşlı yeniyetmə idi. Qərara alırlar ki, bu yeniyetməni öz yanında saxlasınlar. Ona çox nəvaziş edirlər, Fatimiyyun komandiri ona sanki atalıq edir. Bu komandir sonra mənə danışdı ki, uşaqlar o yeniyetməyə etibar etmirdilər, onu silaha yaxın buraxmırdılar. Amma onunla ehtiramla davranırdılar. Danışdı ki, bir gecə Həzrət Əliəsğər rozəmiz

oldu. Sabah isə Məhkan kəndi uğrunda döyüşlər olacaqdı. Birdən bu İŞİD-çi gənc mənə yaxınlaşaraq Əliəsğərin kim olduğunu soruşdu. Mən danışdıqca o, ağlayırdı. Deyirdi ki, şiələri bizə kafir kimi tanıtdırmışdılar. Bundan sonra onu Əliəsğər çağırmağımızı xahiş etdi. Sübh namazına yaxın yuxudan durduğunu gördüm. Nə etmək istədiyini bilmək üçün onu izlədim. Gedib qüsl aldı, sonra namaza hazırlaşdı. Azan olanda isə ozü azan vermək üçün icazə istədi. Azanda Əli əleyhisssəlamın vilayətinə şəhadət verdi.

Namazdan sonra «Məhkan əməliyyatı»-nda iştirak etmək istədiyini dedi. Bəziləri ehtiyat etsələr də mən ona silah verdim. Əməliyyat sübh başlandı. Düşmən öz mövqeyini çox möhkəmlətmişdi. Döyüşçülərimizdən biri yaralı halda yağış kimi yağan güllələrin altında qaldı. Heç kim onu meydandan çıxara bilmirdi. Bu zaman həmin gəncin meydana tərəf süründüyünü

gördük. Yaralı əsgəri dartıb meydandan çıxartdı. Yanına çatanda qarnından güllə yarası aldığını gördük. Hələ də dolu yanaqlarında təbəssüm gözümün qabağındadır. Arxaya çatdırana kimi şəhid oldu. Qarnı aldığı güllədən şişmişdi. Bu, Fatimiyyun komandirinin xatirəsi idi.

Hacı Qasim məktəbində tərbiyə almış insanlar bir İŞİD-çini bu cür tərbiyə edirdilər.

**Uca Allah Quranda buyurur: *«Yaxşılıqla pislik eyni ola bilməz. Sən (pisliyi) yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar»***

**(Fussilət surəsi, ayə 34)**

## Hacı Qasimin komandirlərindən birinin əxlaqı

Şəhid Hacı Qasim Süleymanini özünə örnək götürənlər də insaf sahibi və fədakar idilər. General Dayipur adlı bir nəfər vardı. Əsli kürd idi. Bu komandir qəhvə xoşlayardı və özü üçün yaxşı qəhvə gətirmişdi. Mənim də qəhvə xoşladığımı biləndən sonra demək olar ki, hər dəfə yorğun halda gecələr qaldığımız yerə qayıtdığım zaman öz əlləri ilə qəhvə dəmləyər, süzüb gətirib mənə verərdi. Ordan çıxandan bir müddət sonra Dayipurun minaya düşdüyünü və şəhid olduğunu mənə dedilər.

**Uca Allah Quranda buyurur:** ***«Muhəmməd Allahın Peyğəmbəridir. Onunla birlikdə olanlar da kafirlərə qarşı sərt, bir-birlərinə qarşı isə mərhəmətlidirlər»***

**(Fəth surəsi, ayə 29)**

## Hacı Qasim məktəbində mənəviyyat

Səhrada bir həyətdə kölgəlikdə oturmuşduq. Beş, ya altı nəfər olardıq. Bu zaman qapqara, qalın saqqallı, balaca boylu, xoş simalı bir cavan yanımıza gəldi. Bir az danışanda bildim ki, təbrizlidir. Birdən dedi ki, mən kimin şəhid olacağını qabaqcadan hiss edirəm. Onlar şəhid olmazdan qabaq xüsusi bir nura malik olurlar. Biz onun zarafat etdiyini düşündük və güldük. O, isə tam ciddi bildirdi ki, burda oturanlardan üçü, ya dördü (dəqiq yadımda deyil) bu günlərdə şəhid olacaqlar. Hətta onları bir-bir göstərə bilər. Kermanlı bir dostumuz (insafən çox zəhmət çəkən, fədakar) gülə-gülə dedi ki, lazım deyil. Təbrizli gənc ona mənalı baxaraq aralaşdı. Bu gənci tanıyan bir nəfər başqası da bu onun belə bir hissiyata nalik olmasını etiraf etdi.

Bir neçə gün sonra bu kermanlı gənc mühasirəyə düşdü, yaralandı, pak bədənini

yandırmış və boğazını kəsmişdilər. Məzarı hazırda Şəhid Hacı Qasim Süleymaninin pak məzarından bir az məsafədə yerləşir.

Ayrı birinin boğazından və böyründən güllə yarası alaraq şəhid olduğunu dedilər. Məzarı Qum şəhərində Həzrət Məsumənin (ə) hərəmindədir. Onun şəhidlik xəbərini mənə aeroportda olanda verdilər. Bütün yol boyu göz yaşlarımı kontrol edə bilmirdim. Mazandarandan olan ayrı bir gənc isə ayrı bir məntəqəyə getdi və orda şəhid oldu. Bu cavanlar doğrudan çox mənəvi və saf idilər. Onlara səmimi qəlbdən bağlanmışdım. Həqiqətən, Hacı Qasim məktəbində yetişmiş pak insanlar idilər.

Bu insanlar əzəmətli dağ kimi idilər, heç vaxt seçdikləri yolda zərrə qədər şəkk və şübhəyə düşmədilər.

**İmam Əli (ə) buyurub:** ***«Mömin möhkəm dağ kimidir, tufanlar onu yerindən tərpədə bilməz»***

**(Biharul-ənvar, c.39, s.351)**

# MÜNDƏRİCAT

Almaz necə yarandı?....................................4
Yoxsul bir ailədə dünyaya gəlib.................... 6
Balaca Qasim atasının borclarını ödəyir.......9
Balaca Qasim vüqarlı idi.............................12
Yeniyetmə Qasim idmanı sevirdi............... 16
Gənc Qasim Süleymani iffətini qoruyurdu.18
İmam Hüseyn (ə) məhəbbəti gənc Qasimə nicat verir.................................................... 19
Gənc Qasim kasıblara əl tuturdu................ 20
Gənc Qasim Süleymani əxlaqsızlığa qarşı mübarizə aparır........................................... 23
Gənc Qasim Süleymani qeyrətli idi............24
Gənc Qasim Süleymani İmam Xomeyninin fikirləri ilə tanış olur.................................. 27
Qasim Süleymani döyülür, amma yolundan dönmür.................................................... 31
Yoxsul daxmalardan çıxan almazlar...........34
Hacı Qasim Süleymani necə adam idi?......35
Hacı Qasimi ilk dəfə necə gördüm?........... 38
Hacı Qasim Süleymani var-gücü ilə Allah üçün iş görürdü........................................... 39
Vilayətin möcüzəsi......................................40

Hacı Qasim Süleymani bütün müqavimət cəbhəsinin sevimlisi idi ..............................42
Hacı Qasim Süleymani ruslarla iclası necə idarə etdi? ...................................................46
Türkmənlərin soyqırımının qarşısı necə alındı? ......................................................49
Misilsiz sərkərdə ........................................ 51
Şəhid Hacı Qasim Süleymani insaflı idi .....53
Hacı Qasim məktəbinin yetirmələri ............55
Şəhidlər çox diqqətli idi ..............................57
Hacı Qasim məktəbinin iffətli yetirmələri ..59
Hacı Qasim məktəbində düşmənlə rəftar ... 60
İŞİD-çi gənc necə şəhid oldu? .................... 64
Hacı Qasimin komandirlərindən birinin əxlaqı ......................................................67
Hacı Qasim məktəbində mənəviyyat ..........68

Əziz dost! Dəyərli gənc!
Bu kitab siz gənclər və yeniyetmələr üçün nəzərdə tutulub. Haqqında danışacağımız şəxs nə mələk idi, nə səmadan enmiş qeyri-adi varlıq və nə də nağıllarda, filmlərdə uydurulmuş bir şəxs...
O, sizin kimi bir insan idi. Çoxlarınız kimi yoxsul bir ailədə dünyaya gəlmişdi. Amma çətinliklərə səbr etməklə, Allaha güvənməklə, gecə-gündüz öz üstündə işləməklə dünyanın ən məşhur şəxsiyyətlərindən biri oldu. Sən də bu cür ola bilərsən. Sadəcə buna inan və çalış. Onun həyat və mübarizə tərzini özünə nümunə seç!

